# Azərbaycanın ədalətli şərtlərini ehtiva edən sülh gündəliyi



(əvvəli 1-ci səhifədə)

Xüsusilə də müharibədən sonrakı dövrdə xalqlar arasında əlaqələrin yaradılması və regionda sabit sülh şəraiti barəsində müzakirələrin aparılması zərurətə çevrildi.

Azərbaycan Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olunmasında maraqlıdır. Bütün region ölkələri üçün bu, ən əlverişli mövqedir. Çünki ölkələr arasında yaranacaq mehriban qonşuluq münasibətləri regionun iqtisadi cəhətdən inkişaf etməsinə çox böyük töhfələr verəcəkdir. Azərbaycan bu istiqamətdə səylərini əsirgəmir. Postmünaqişə dövrü və Azərbaycanın yaratdığı geosiyasi reallıqlardan danışarkən dövlət başçısı İlham Əliyev qeyd edib ki, postmüharibə dövründə Azərbaycanın xarici siyasətinin istiqamətləri ikitərəfli və çoxtərəfli münasibətlərin qurulması formatları aspektində olduqca aktualdır.

Postmünaqişə dövründə regional geosiyasi gündəliyi Azərbaycan diktə edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bütün dünya, aparıcı ölkələr və aparıcı beynəlxalq təşkilatlarla, Avropa İttifaqı ilə uğurlu qarşılıqlı fəaliyyət davam etdirilir. Postmünaqişə dövründə baş tutan görüşlər Azərbaycanın üstünlüyü şəraitində keçir. Bunun nəticəsidir ki, Avropa İttifaqı da iki ölkə arasındakı münasibətlərin normallaşması istiqamətində daha real işlər görməyə başlayıb. Proseslərin gedişatı göstərir ki, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranır. Təbii ki, burada da məqsəd, ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır. Avropa İttifaqı qərəzsiz tərəfdir və hər iki ölkənin bu təşkilata etimadı vardır. Postmünaqişə dövründə isə məsələlərin həlli istiqamətində qərəzsiz bir vasitəçiliyin olması xüsusi önəm kəsb edir və bu, ölkəmiz üçün daha effektivdir. Burada xüsusilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyevlə şəxsi dialoqu və təmasları mühüm şərtdir.

İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin görülməsi, Böyük Qayıdışın təmin olunması, sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması, yeni əməkdaşlıq platformalarının yaradılması və bu kimi digər istiqamətlərdə görülən işlər ölkəmizin gücünün artması, yeni perspektivlərin açılması deməkdir. Ən əsası, bu, Azərbaycanın strateji hədəflərə doğru əmin addımlarla irəliləməsini təmin edir.

Azərbaycan Böyük Qayıdışı qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir. Müharibənin başa çatmasından az vaxt ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərdə bərpa layihələrinin icrasına başlanılması, hazırda işlərin intensiv şəkildə davam etdirilməsi bunu bir daha təsdiqləyir. Görülən işlərə istinadən demək olar ki, Vətən müharibəsində işğaldan azad edilən ərazilərə artıq həyat qayıdır. O ərazilərdə layihələr müxtəlif istiqamətlərdə icra olunur. Bura həm şəhər və kəndlərin tikintisi, həm də zəruri infrastrukturun yaradılması daxildir. Azərbaycan bütün yaşayış məntəqələrini yeni yanaşmalar, o cümlədən, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası əsasında bərpa edir.

Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun qələbəsi, sadəcə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə yekunlaşmadı, eyni zamanda Prezidentin rəhbərliyi ilə yürüdülən düşünülmüş xarici siyasət regionda formalaşdırılan yeni geosiyasi konfiqurasiyanın yaranmasına gətirib çıxardı. Azərbaycan region dövlətləri arasında dinc və normal münasibətlərin başlanğıcını qoyan dövlət olmaqla yanaşı, həm də əməkdaşlıq formatını və regional aktorlarının yerini və rolunu müəyyən edir. Region ölkələrinin bir-biri ilə əməkdaşlıq etməsi isə bütün tərəflərin maraqlarına uyğun gəlir.

Ekspertlərin qənaətinə görə, indi yeni yaranmış reallığı qəbul edən bütün ölkələr əməkdaşlıq formatına fokuslanmış vəziyyətdədirlər. Kommunikasiyaların açılması, əməkdaşlığın genişləndirilməsi regionun inkişafına gətirib çıxaracaq. Yeni yaranan reallığı istər region, istərsə də dünya dövlətləri qəbul edir. Belə ki, ölkəmizdə səfərdə olan Fransa Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist-Lemuan bildirib ki, Fransa şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərində layihələri reallaşdırması üçün heç bir maneə yoxdur və onun səfəri yeni layihələrin bağlanğıcını və münasibətlərin gələcək inkişafını ifadə edir. Eyni zamanda, Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarovla ABŞ səfiri Örl Litzenbergerin görüşündə səfir ölkəsinin şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirak etmək istədiklərini, xüsusilə su ehtiyatlarının idarə olunmasında, yol və digər infrastrukturun yaradılmasında, rəqəmsal və innovativ texnologiyalar sahəsində əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

**Postmünaqişə dövründə irəli sürülmüş bu prinsiplərin həyata keçirilməsi davamlı sabitliyi təmin edəcək**

2022-ci il aprelin 29-da ADA Universitetində keçirilmiş "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən səsləndirilən fikirlər istər ölkəmizin, istərsə də bölgəmizin gələcəyi baxımından mühüm əhəmiyyət kəsb edir: "Bizim ictimaiyyətə bəyan edilmiş və beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənmiş sülh gündəliyimiz və təşəbbüslərimiz regional inkişafa, Cənubi Qafqazda regional inkişaf üçün yeni fürsətlərə hədəflənib... Cənubi Qafqazın inkişafına yönəlib".

Konfrans onu göstərdi ki, Azərbaycanın Vətən müharibəsindən sonra ortaya qoyduğu prinsipial mövqe dəyişməzdir, bölgənin inkişafı isə yalnız burada yerləşən ölkələrin sülh şəraitində yaşamasından asılıdır. Azərbaycan Qafqazda yeni sülh və əməkdaşlıq erasını fəal şəkildə təşviq edir. Ölkəmizin irəli sürdüyü təməl prinsiplərinin Ermənistan tərəfindən qəbul edilməsi məhz bu platformanın gücləndirilməsi deməkdir və sülh müqaviləsinin bağlanması ilə bölgədə sülh, əmin-amanlıq və inkişaf təmin olunacaq.

Azərbaycan tərəfindən Ermənistanla sülh müqaviləsinin imzalanması üçün 5 prinsip təklif olunub və sonda Ermənistan hökuməti bu təklifləri qəbul edib. Bu prinsiplər Ermənistanla imzalanacaq sülh müqaviləsinin əsasını təşkil edəcək: "...Əgər sülh müqaviləsi imzalanarsa, həmin təməl prinsiplər həyata keçərsə, onda Qafqazda sülh uzunmüddətli və dayanıqlı olacaq. Niyyətimiz budur. Hesab edirəm ki, nümayiş etdirdiyimiz və elan etdiyimiz addımlar Qafqazda sülhə töhfə vermək üçün iradəmizin bariz nümunəsidir. Biz Qarabağı yenidən qururuq, iqtisadiyyatımızı gücləndirmək üçün resurslarımızı səfərbər edirik, çünki onsuz gözəçarpan vəsaitləri ayırmaq asan olmaz. Eyni zamanda, biz Qafqazda sülh gündəliyini təşviq edirik. Hesab edirəm ki, bütün istiqamətlərdə təşəbbüs bizim əlimizdədir. Həmin təşəbbüs sülhə xidmət edir və etməlidir", - deyə dövlət başçısı vurğulayıb.

Azərbaycan regionda aparıcı dövlət, söz sahibidir. Azərbaycanın razılığı və təşəbbüsü olmadan bölgədə heç bir layihə həyata keçirilə bilməz. Bundan sonra situasiyanı Azərbaycan diktə edəcəkdir. Həmçinin, Azərbaycanın mövqeyi beynəlxalq qanunlara əsaslanır.

Ümid etmək olar ki, ölkə Prezidentinin Azərbaycanın maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi siyasət nəticəsində Ermənistan və Azərbaycan arasında yaxın müddət ərzində sülh müqaviləsi imzalanacaq. Postmünaqişə dövründə gündəliyi Azərbaycan diktə edir və irəli sürülmüş 5 prinsipin effektiv olaraq həyata keçməsi prosesi gələcəkdə davamlı sülhün təmin olunması ilə nəticələnəcək.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**